

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 160 (24.047)

25 avqust 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika



Avqustun 24-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin rəsmi qarşılanma mərasimi olub. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə təkbətək görüşü olub, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin şərəfinə rəsmi ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev tərəfindən Qazaxıstanın "Altın kıran" – "Qızıl qartal" ali ordeni təqdim olunub.

Həmin gün Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının prezidentləri Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə geniş tərkibdə görüşü keçirilib. Hər iki dövlət başçısı görüşdə çıxış ediblər. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb. Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan-Qazaxıstan diplomatik əlaqələrinin 30 illiyi münasibətilə Dənizkənarı Milli Parkda qurulmuş "Qazax yurtası" ilə tanış olublar.

## Naxçıvan Muxtar Respublikasında əhaliyə yüksək səviyyədə bank və ödəniş xidmətləri göstərilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" təsdiq edildiyi vaxtdan bu günədək nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən müasir ödəniş texnologiyalarından istifadə edilməklə əhaliyə bir sıra məsafəli bank xidmətləri göstərilmişdir.***

2022-ci ilin yanvar-iyun ayları ərzində özəl sektorda işçilərin əməkhaqlarının ödəniş kartları ilə həyata keçirilməsi məqsədilə nağdsız formada ödənişlərin əhəmiyyəti ilə bağlı yerində maarifləndirmə işləri davam etdirilmiş, publik hüquqi şəxs statuslu müəssisələrdə ödənişlərin onlayn və POS-terminallar vasitəsilə qəbulu sahəsində tədbirlərin icrası ilə əlaqədar yeni yaradılan publik hüquqi şəxs statuslu müəssisələrdə mütəmadi maarifləndirmə işləri aparılmışdır.

Həmçinin təhsil müəssisələrində rəqəmsal ödənişlər haqqında zəruri biliklərin verilməsi üçün maarifləndirici görüşlər keçirilmiş, nağdsız qaydada əməliyyatların aparılmasının əhəmiyyəti izah olunmuş, o cümlədən ödəniş kartları və ödəniş xidmətləri sahəsində çalışan mütəxəssislərin bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində seminarlar keçirilmişdir.

Qeyd olunan tədbirlərin icrasını statistik rəqəmlərdə də müşahidə etmək üçün muxtar respublikada fəaliyyət göstərən banklar və onlar tərəfindən cari ilin ötən dövrü ərzində göstərilən xidmətlərin müqayisəli təhlilinə baxaq.

1 iyul 2022-ci il tarixə muxtar respublika ərazisində "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti və onun 6 filialı, "Kapital Bank" ASC-nin 8 filialı, "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Naxçıvan filialı, "Azər-Türk Bank" ASC-nin Naxçıvan filialı, "Bank Respublika" ASC-nin Naxçıvan filialı, "Rabitəbank" ASC-nin Naxçıvan şöbəsi, "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının Naxçıvan filialı, "Finca Azerbaijan"nın Naxçıvan filialı və "Bərəkət" Kredit İttifaqı fəaliyyət göstərir.

Həmin tarixə 213 min 329 bank müştərisi mövcud olmuşdur ki, bunlardan da 2 min 126-sı hüquqi şəxs, 211 min 203-ü fiziki şəxs, 22 min 858-i isə fərdi sahibkarların payına düşmüşdür. 18 yaşdan yuxarı əhalinin, təxminən, 73 faizi bank müştərisidir.



Vətəndaşların maliyyə xidmətlərinə çıxış imkanlarının artırılmasında "Naxçıvanpoçt" publik hüquqi şəxs üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə səy göstərir. Belə ki, Naxçıvan şəhərində 1 mərkəzi, hər bir rayonda 1 filialı olmaqla, 7 poçt filialı və 192 poçt bölməsi ilə fəaliyyət göstərən publik hüquqi şəxs ənənəvi poçt xidmətlərindən başqa sürətli pul köçürmələri sisteminə qoşularaq ölkədaxili pul köçürmələrini də həyata keçirir.

Muxtar respublikada bank rəqabətliliyinin daha da artırılması, əhalinin bank məhsullarına çıxış imkanlarının daha da inkişaf etdirilməsi və xidmətlərin əhatəliliyinin genişləndirilməsi məqsədilə ötən müddət ərzində real sektorun, o cümlədən kiçik və orta biznesin maliyyə resursları ilə təminatı baxımından yeni fəaliyyətə başlamış "Bank Respublika" ASC-nin Naxçıvan filialının xidmətı də qeyd olunmalıdır.

Adıçəkilən proqramda nəzərdə tutulmuş mövcud rəqəmsal ödəniş infrastrukturunun daha da təkmilləşdirilməsi məqsədilə muxtar respublikada MilliÖn Naxçıvan Regional Xidmət Mərkəzinin fəaliyyəti təmin edilmiş və 1 iyul 2022-ci il tarixinə əhalinin daha çox üz tutduğu məkanlarda 57 ədəd olmaqla, MilliÖn ödəniş terminalları quraşdırılmışdır.

Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən bəhs olunan dövrdə cəmi 292 min 689 ödəniş kartı emissiya edilmişdir ki, bunun 86,8 faizini debet kartlar, 13,2 faizini isə kredit kartları təşkil etmişdir. Ödəniş kartlarının 30,4 faizi pensiya və sosial müavinət, 33,8 faizi isə əməkhaqqı kartlarının payına düşmüşdür.

Ödəniş kartlarının 90 faizi "Kapital Bank" ASC və "Naxçıvanbank" ASC tərəfindən emissiya edilmişdir. Muxtar respublikada hər 100 nəfər əhaliyə 63 ödəniş kartı düşür. Əhalinin bank və maliyyə xidmətlərindən daha asan şəkildə istifadə imkanlarının yaradılması məqsədilə bankların kart emissiyası üzrə fəaliyyətinin aktivləşdirilməsi və ödəniş kartı istifadəçilərinin sayının artırılması Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əsas hədəflərindən biri olmuşdur.

Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən 8-i cashin (kart hesabına vəsaitin mədaxili) və 6-sı exchange (valyutadəyişmə) funksiyalı olmaqla, 118 bankomat quraşdırılmışdır. Muxtar respublikanın rayonlarında bankomat şəbəkəsinin genişləndirilməsi məqsədilə yeni bankomatların gətirilməsi istiqamətində əlavə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ötən dövr ərzində muxtar respublikada quraşdırılmış bankomatların mütəmadi olaraq monitorinqi həyata keçirilmiş, yararsızların dəyişdirilməsi, texniki nasazlığı olan bankomatların işləkliyinin təmin olunması, avadanlıqların təmizliyinin diqqətdə saxlanılması ilə bağlı aidiyyəti banklara tapşırıqlar verilmiş, nöqsanların əksəriyyəti aradan qaldırılmışdır. Bu istiqamətdə işlər davam etdirilir.

Bəhs olunan dövrdə muxtar respublikada pensiyaçıların ümumi sayı 44 min nəfər olmuşdur. 2022-ci ilin birinci yarım ili ərzində verilmiş pensiyanın məbləği 99 milyon manat təşkil etmişdir. Pensiya alanların 52 faizi öz pensiyalarını "Kapital Bank" ASC, 14 faizi "Naxçıvanbank" ASC, 30 faizi isə "Azərbaycan Beynəlxalq Bank" ASC tərəfindən təqdim olunmuş ödəniş kartları vasitəsilə əldə etmişlər. Pensiya alanların 4 faizi isə poçt xidməti vasitəsilə sosial ödənişləri almışlar. Muxtar respublikada pensiyaların 96 faizi ödəniş kartları vasitəsilə paylanılmışdır.

Cari ilin ilk 6 ayı ərzində muxtar respublikada sosial müavinət alanların ümumi sayı 28 min nəfər olmuşdur. Həmin dövrdə verilmiş sosial müavinətlərin məbləği xidmət haqqı ilə birlikdə, 25 milyon manat təşkil etmişdir. Muxtar respublikada sosial müavinətlərin 98 faizi ödəniş kartları vasitəsilə paylanılmışdır.

Ortaaylıq pensiyanın məbləğinin 375 manat olduğunu nəzərə alsaq, ayın ilk 11 günü ərzində bir bankomatdan, təxminən, 628 pensiyaçı və sosial müavinət əldə edən şəxs öz sosial ödənişlərini əldə etmişlər.

Muxtar respublikada 1 iyul 2022-ci il tarixə 99 min 156 əməkhaqqı kartı mövcud olmuşdur ki, bunun da 58,6 faizi "Kapital Bank" ASC tərəfindən emissiya edilmişdir. Dövlət sektorunda əməkhaqlarının 100 faizi və qeyri-dövlət sektorunda isə əməkhaqlarının 95,6 faizi ödəniş kartları vasitəsilə paylanılmışdır.

1 iyul 2022-ci il tarixə muxtar respublikada 909-u təmassız olmaqla, ümumilikdə, 1590 POS-terminal quraşdırılmışdır. Naxçıvan şəhəri üzrə hər 10 min nəfərə düşən POS-terminalların sayı, təqribən, 80 olduğu halda, Sədərək rayonunda bu göstərici 13 ədəd təşkil etmişdir. Eyni zamanda POS-terminal vasitəsilə aparılan nağdsız ödənişlərin həcminə nəzər salsaq, ən yüksək göstərici 16 milyon 768 min 37 manat olmaqla, Naxçıvan şəhərində, ən aşağı rəqəm isə 400 min 642 manat olmaqla Şahbuz rayonunda müşahidə edilmişdir.

Bir POS-terminala düşən əməliyyatın ortaaylıq həcmi yanacaqdoldurma məntəqələrində, mehmanxana və istirahət mərkəzlərində, məişət avadanlıqları və texnologiya sahələrində daha çox olmuşdur. Muxtar respublikada quraşdırılmış POS-terminalların əksər hissəsində dövriyyə 1000 manatdan çox təşkil etmişdir. Təsərrüfat subyektlərinin 76,3 faizində POS-terminallar quraşdırılmış, digər təsərrüfat subyektlərində isə bu proses mərhələli şəkildə davam etdirilməkdədir.

1 iyul 2022-ci il tarixə muxtar respublikada ödəniş kartları ilə aparılan əməliyyatların həcmi (ölkəxarici əməliyyatlar nəzərə alınmaqla) 443,5 milyon manat olmuşdur ki, bunun da 12,2 faizi nağdsız əməliyyatların payına düşmüşdür. Ödəniş kartları ilə nağdsız ödənişlərin həcminin artırılması məqsədilə kart infrastrukturunun formalaşdırılması və təkmilləşdirilməsi, eyni zamanda bu istiqamətdə əhalinin maarifləndirilməsi və kart ödənişləri üzrə əhalinin inam və etibarının artırılması sahəsində işlər davam etdirilmişdir.

Proqram qəbul olunduğu tarixdən başlayaraq müvafiq illər üzrə həm POS-terminal, həm də internet və digər ödəniş vasitələrilə aparılmış əməliyyatların həcminə nəzər salsaq, görərik ki, 2019-cu illə müqayisədə 2020-ci ildə 96,2 faiz, 2020-ci illə müqayisədə isə 2021-ci ildə 33,2 faiz artım olmuşdur. Bu artım da, əsasən, Naxçıvan şəhərinin, Şərur, Ordubad və Culfa rayonlarının payına düşmüşdür. Həmçinin cari ilin ilk altı ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə nağdsız dövriyyənin həcmi 1,5 dəfədən çox artaraq 86 milyon 206 min manat olmuşdur. Aparılan nağdsız ödənişlərin 23 milyon 48 min manatı POS-terminallar vasitəsilə, 63 milyon 158 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilmişdir.

*Muxtar respublikada fəaliyyət göstərən bank sektoru tərəfindən rəqəmsal ödəniş xidmətlərinin tətbiqi və nağdsız hesablaşmaların genişləndirilməsinin icrası istiqamətində ötən dövr ərzində əldə edilmiş nəticələr qarşıya qoyulmuş tapşırıqların Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən uğurla icra olunduğunu deməyə əsas verir.*

**Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi**

***Kreativ iqtisadiyyat yaradıcılıq fəaliyyəti ilə bağlı məhsul və xidmətləri yayan, istehsal və istehlak edən milli və beynəlxalq iqtisadiyyatın müvafiq sektorudur. Bu iqtisadiyyat yeni ideyaları, yaradıcı imkanları özündə ehtiva edir. Yaradıcı (kreativ) sənaye sözü ilk dəfə "Business Week" jurnalı tərəfindən 2000-ci ildə işlədilib. Memarlıq və dizaynı da əhatə edən bu sənaye sahəsi bu gün müasir trendlərdən biri sayılır və ona maraq getdikcə artır. Onun bir biznes sahəsi kimi də geniş inkişaf perspektivləri vardır.***

*"Sənaye ili" – 2022*

# Muxtar respublikamızda yaradıcı (kreativ) sənaye sahəsi də inkişaf edir



Ölkəmizin ayrılmaz hissəsi olan muxtar respublikamız zəngin mədəniyyətə malikdir. Tarixən burada insanlar dulusçuluq, xalçaçılıq, miniatür sənəti kimi sahələrdə yaratdıqları sənətkarlıq nümunələri ilə öz yaşayışlarını təmin ediblər. Ənənələr bu gün də yaşayır. Lakin zaman keçdikcə dünyada baş verən hadisələrə uyğun olaraq inkişaf edən gündəmlər, iqlim və texnoloji dəyişikliklər kimi faktorlar cəmiyyətlərin və insanların estetik anlayışını, yaşayış vərdişlərini dəyişir. Geyimdən saç düzümünə, memarlıqdan interyer dizaynına qədər bir çox sahədə hər il ortaya çıxan tendensiyalar bu şəkildə formalaşır. Moda və ya dekorasiya trendlərini izləmək təkcə mövcud estetik anlayışa uyğunlaşmaq deyil, həm də zamanın gündəmini izləmək və həyatımıza uyğun toxunuşlar etmək deməkdir. Xüsusilə memarlıq və interyer dizaynına gəlincə, deyə bilərik ki, hər il geniş yayılan tendensiyalar həyat keyfiyyətini yüksəltmək və daha rahat yaşayış sahələri yaratmaq üçün çox əhəmiyyətli açarlardır.

Hər kəs yaşadığı və işlədiyi yerdə özünü rahat və harmoniyada hiss etmək üçün memarlara, dizaynerlərə müraciət edir. Elə biz də bu gün hər kəsin zövqünə uyğun, müasir dizaynda evlər tikib, təmir və dizayn edərək insanların ixtiyarına verən "Planet Dizayn İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyəti barədə sizə məlumat verəcəyik.

*Qısa arayış*

***Orxan Əliyev*** 1988-ci il iyunun 30-da Naxçıvan şəhərində anadan olub. 1994-2005-ci illərdə Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbdə oxuyub. 2006-2010-cu illərdə Naxçıvan Dövlət Universitetinin Memarlıq-mühəndislik fakültəsinin Memarlıq ixtisası üzrə ali təhsil alıb. 2009-2021-ci illər ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Layihə-smeta qrupunda baş mütəxəssis-memar vəzifəsində işləyib. Hazırda "Planet Dizayn İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktorudur. Azərbaycan Memarlar İttifaqının və Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin idarə heyətinin üzvüdür.

*– Orxan müəllim, xoş gördük. Əvvəlcə bilmək istərdik ki, sizdə memarlığa maraq haradan yarandı?*

– Atam riyaziyyatçı olduğu üçün məktəb vaxtı mənə həndəsi fiqurların qurulmasında daim köməklik edir və məni mühəndis görməyi arzulayırdı. İlk vaxtlar memarlığın, mühəndisliyin nə olduğunu başa düşmürdüm. Bizim əvvəllər yaşadığımız ev milli memarlığımızın əvəzsiz nümunələrindən sayılan Möminə xatın türbəsinin yaxınlığında olduğu üçün atam bizi tez-tez ora aparıb gəzdirər, türbə haqqında, onun əsasını qoyan Memar Əcəmi barədə geniş məlumat verərdi. Elə o vaxtdan mənim uşaq qəlbimdə bu sənətə maraq oyanıb.

*– Necə oldu ki "Planet Dizayn İnşaat" MMC-ni qurmaq qərarına gəldiniz? Nə üçün məhz Planet?*

– Azərbaycanın istənilən bölgəsində, eləcə də xarici dövlətlərdə layihə-tikinti şirkətlərinin qanuni fəaliyyətini görüb bəyəndiyim və vətəndaşların hər hansı bir layihə-tikinti işləri olduqda daha çox mütəxəssislərlə işləyən şirkətə müraciət etdiyini gördüyüm üçün bu məhdud məsuliyyətli cəmiyyəti qurmaq qərarına gəldim. Çünki bu tipli layihə-tikinti şirkətləri öz karyerasını qorumaq məqsədilə daim mütəxəssislərlə işləmiş və işləməkdədir. Həm də muxtar respublikamızda sənayenin digər növləri kimi yaradıcı sənaye sahələrinə də diqqət və qayğı göstərilir, onların fəaliyyəti təmin edilir. Artıq 2 ildən çoxdur ki, fəaliyyət göstəririk və muxtar respublikada müəyyən layihələri icra etmişik. MMC-nin adının "Planet" olmasında əsas məqsəd isə özünəinamlı olmağımızdan irəli gəlir. Biz nəinki Azərbaycanda, planetimizin istənilən nöqtəsində layihələrimizi həyata keçirəcəyimizə inanırıq.

*– Əsas fəaliyyət istiqamətiniz, hədəfiniz, üstünlüyünüz barədə nə deyə bilərsiniz?*

– Lisenziyalı memar və mütəxəssis kadrlarımızla layihələri, mənzilləri və bunun kimi müxtəlif tikililəri bu məsələdə bizə etibar edən müştərilərin zövqlərinə uyğun inşa və dizayn edirik. Fəaliyyətimizdə əsas məqsəd qayda-qanun çərçivəsində Naxçıvan-Marağa memarlıq məktəbini bölgələrdə təmsil etmək, Naxçıvan memarlıq ənənələrini yaşatmaq, vətəndaşların rahatlığını təmin etmək və dayanıqlı binalar inşa etməkdir. Hədəfimiz böyük layihələrə imza atmaq, üstünlüyümüz isə ixtisaslı kadrlarla işləməyimizdir.

*– Zövqlər və rənglərlə bağlı mübahisə edilməz, – deyirlər. Olub ki, sifarişçilərinizin zövqlərini müzakirə edəsiniz?*

– Hər bir insan özünəməxsus zövqə və tərzə sahibdir. Bəzən insanlar düzgün seçimlər etmirlər. Bu zaman biz onlara müxtəlif seçimlər, büdcələrinə uyğun fərqli alternativlər təklif edib ortaq məxrəcə gəlirik.

*– Müasir dövrdə sifarişçiləriniz daha çox hansı tərzə üstünlük verir?*

– Bu gün insanlar, əsasən, modern, avanqard və loft üslublarına üstünlük verirlər. Modern üslub XIX əsrin ikinci yarısında – XX əsrin əvvəllərində Avropada yaranıb. Onun fərqləndirici xüsusiyyətləri təbiilik qazanmaq üçün düz cizgilər və künclərdən imtina, yeni texnologiyaya maraqdadır. Burada müxtəlif üslubların elementlərinin qarışığını görmək mümkündür. Avanqard üslub XX əsrin əvvəllərində inqilabi əhvali-ruhiyyənin təsiri altındakı gənclərin üstünlük təşkil etdiyi vaxtda meydana gəlib. Bu üslub klassik üslubun əks üslubu hesab edilir və qeyri-adi düşüncələri və orijinal zövqləri olan yaradıcı, həmçinin sərbəstliyi sevən insanların könlünü oxşayır. Loft üslubu 1970-ci illərdə Amerikada sənayeləşmənin inkişafı dövründə meydana gəlib. Bu üslubda ən çox diqqəti cəlb edən detallar məhz metal və taxta detallarının gözoxşayan vəhdəti olur.



*– Müasir və cəlbedici dizaynı hər kəs arzulayır. Siz interyer və eksteryer dizaynda nələri əsas götürürsünüz?*

– Bizim ən çox üstünlük verdiyimiz memarlıq üslubları bölgəyə uyğun dizayndır. Adətən, modern üsluba üstünlük veririk. Məsələn, bu il görə bilərik ki, ilboyu qarşılaşacağımız bəzək trendləri daha çox ətraf mühitin mühafizəsi və təbiətə sevgi mövzusu ilə formalaşıb. Bu ilin tendensiyalarının formalaşdığı digər diqqətçəkən mövzu, keçmişdə pandemiya səbəbi ilə daha çox evlərimizdə keçirdiyimiz vaxta görə yaşayış yerlərimizi daha rahat bir evə çevirməkdir. Eksteryer dizaynda isə yerləşdiyiniz məkan və ətrafdakı digər tikililər mütləq harmoniyada olmalıdır. Bu səbəbdən də, həmin proses böyük məsuliyyət tələb edir.

*– Komanda işi sizin fəaliyyətinizdə əsasdır. Bu mənada, komandanızın fəaliyyətini necə dəyərləndirərdiniz?*

– Bildiyiniz kimi, bir layihə-tikinti qrupu daim kollektiv şəkildə işləməlidir. Yəni bu qrup memarsız, dizaynersiz, konstruktorsuz təsəvvür edilə bilməz. Kollektivimiz ixtisaslı kadr və peşəkarlardan ibarətdir. Onlar funksional, dəqiq və estetik çalışırlar. Təmir və dizayn üzrə ixtisaslaşmış komandamız bütün arzularınızı reallığa çevirməyə hazırdır.

*– Ən yaxşı layihəniz hansı olub?*

– İldən-ilə insanların tələbatları artır və buna görə də biz də işlərimizi günbəgün daha da mükəmməlləşdiririk, bu məqsədlə hər yeni layihəmiz, təbii ki, əvvəlkilərdən yeniliyi, müasirliyi ilə fərqlənir. Fikrimcə, ən yaxşı layihəmiz hələ qarşıdadır.

*– Siz həm də Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Memarlıq-dizayn" dərnəyinin rəhbərisiniz. Şagirdlərinizə əsas tövsiyəniz, adətən, nə olur?*

– Dərs dediyim mərkəzdə şagirdlərə ən böyük tövsiyəm Naxçıvan-Marağa memarlıq məktəbini tanıtmaq və gələcəkdə təklif alıb işləyəcəkləri layihələrin keyfiyyətini və memarlıq üslubunu qoruyub saxlamaqdır.

*– Qurmaq, yaratmaq hissi həm də yüksək mənəvi zövq, həyatsevərlik, yaşamaq eşqi bəxş edir insana...*

– Tamamilə doğrudur. Fəaliyyətimizdən aldığımız ən gözəl zövq insanların xəyallarını reallaşdırmaqdır. Buna nail olarkən biz insanların sevincinə ortaq olur və gördüyümüz işdən qürur duyuruq.

*– "Planet Dizayn İnşaat" MMC olaraq gələcək planlarınız barədə məlumat da oxucularımız üçün maraqlı olar.*

– Azərbaycanın hər bir bölgəsində, xüsusilə də işğaldan azad edilmiş torpaqlarımızda yeni təklif-layihələr hazırlamaq, daha böyük layihələrə imza atmaqdır.

*– Maraqlı müsahibə üçün sağ olun.*

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Kitab müzakirəsi olub



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun könüllülərinin iştirakı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"nda yer alan "Kitabi-Dədə Qorqud" dastanının müzakirəsi keçirilmişdir.*

Oxunması zəruri olan kitablar haqqında ümumi məlumat verən mərkəzin elmi katibi Nihad Tarverdiyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamının əhəmiyyətini, bu tarixi dövlət sənədinin icrası istiqamətində görülən işləri diqqətə çatdırmışdır.

Vurğulanmışdır ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının yadellilərə qarşı qəhrəmanlıq mübarizəsi səhifələri ilə zəngin olmaqla bərabər həm də xalqımızın zəngin mədəniyyətə malik olduğunu sübut edir. "Kitabi-Dədə Qorqud" dastanında ifadə olunan çoxsaylı toponimlərin Naxçıvan ərazisində qeydə alınması bu regionun qədim Oğuz yurdu, Azərbaycan torpağı olduğunu bir daha təsdiqləyir. Bir sözlə, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Azərbaycan xalq bədii təfəkkürünün abidəsi olan dastanın poetik dili bədii təsvir vasitələri ilə zəngindir. Onlarda xalq dilinin incəliklərindən, atalar sözü, məsəl və idiomatik ifadələrdən məharətlə istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından zəngin mənbədir.

Qeyd olunmuşdur ki, milli-mədəni irsin qorunub yaşadılması və yeni nəsillərin Azərbaycançılıq ruhunda tərbiyə olunmasında "Kitabi-Dədə Qorqud" dastanlarının böyük əhəmiyyətini nəzərə alaraq, Qorqudşünaslığın sistemli fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti 2015-ci il 20 fevral tarixdə "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun gənc könüllülərindən Zeynəb İlyasova, Dilbər Qasımlı, Bağdagül Cəfərli, Çinarə Abdullayeva, Sevinc Baxşəliyeva, Samir Həsənov "Kitabi-Dədə Qorqud" dastanı haqqında fikirlərini diqqətə çatdırmışlar.

Sonda mərkəzdə yaradılan kitab sərgilərinə baxış olmuşdur.

**Xəbərlər şöbəsi**

## Bərəkət təknəsi dəyirmanlar

*Muxtar respublikada insanların qədimdən bəri taxılçılıqla məşğul olması bu ərazidə dəyirmanların da geniş yayılmasına səbəb olub. Qədim dəyirmanların bir çoxunun günümüzədək gəlib çıxması, dəyirman daşlarının və digər maddi nümunələrin aşkarlanması bunu təsdiq edir. Elmin, texnikanın inkişaf etdiyi müasir dövrümüzdə çox böyük istehsal gücünə malik olan avtomatlaşdırılmış dəyirmanlar işi xeyli asanlaşdırıb. Bununla belə diyarımızda su dəyirmanlarından bu gün də istifadə olunur, onlar bərpa edilərək işlək vəziyyətə gətirilir.*



Son illər muxtar respublikada taxıl ehtiyatı anbarlarının yaradılması, yeni un dəyirmanlarının istifadəyə verilməsi torpaq mülkiyyətçilərinin taxıl istehsalına marağını daha da artırıb. Belə un dəyirmanlarından biri də Şərur şəhərində yerləşən "Aqrotexservis" Səhmdar Cəmiyyətinin nəzdində fəaliyyət göstərən "Dostluq" un dəyirmanıdır.

Dəyirmanın təcrübəli işçilərindən ***Vüsal Quliyev*** bizimlə söhbət zamanı dedi ki, muxtar respublikamızda əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər, atılan addımlar hamımızı sevindirir. Sahibkarlıq fəaliyyətinə belə geniş meydan verilməsi də bu tədbirlərin bir hissəsidir. Öyrəndik ki, sahibkar Adil Məmmədova məxsus dəyirman 2000-ci ildə onlara verilən güzəştli kredit dəstəyi hesabına öz işini qurub. İki-üç nəfərlə fəaliyyətə başlayan müəssisədə hazırda 6-ya yaxın işçi çalışır. Burada işçilərə normal iş şəraiti yaradılıb, onlar xüsusi geyim formaları və servis xidməti ilə təmin olunublar. Müəssisədə müxtəlif çeşiddə yüksəkkeyfiyyətli məhsul istehsal etmək məqsədilə Almaniyanın bu sahə üzrə qabaqcıl təcrübəyə malik firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Gün ərzində 5 ton məhsul istehsal etmək gücündə olan dəyirman tək şərurluların deyil, qonşu Sədərək və Kəngərli rayonları sakinlərinin də una olan tələbatının ödənilməsində böyük rol oynayır.

Burada ikən istehsal prosesi ilə tanış olduq: – Buğda əvvəlcə beton çəlləyə tökülür, buğdaələyən maşına keçir. Taxıl təmizlənir və məhsul yuyulmaq üçün digər maşına ötürülür. Həmin avadanlıq buğdanı yuyur və qurudur. Yuyulmuş buğda 1-2 saat dincə qoyulur. Sonrakı prosesdə buğdanın üst hissəsi, yəni qabığı soyulur və oradan əsas aparata, döyən avadanlığa ötürülür. Buğda döyülüb un halına salınandan sonra ələyə keçir. Ələk vasitəsilə məhsul birinci növ una, eləcə də kəpəyə ayrılır. Sonra kisələrə doldurulub ağzı tikilərək sifarişçiyə verilir.

Alıcı ***Müzəffər Kərimov***la həmsöhbət olduq. O, üyüdülən unun keyfiyyətindən ağızdolusu danışdı, müəssisənin fəaliyyətindən, xidmətin səviyyəsindən razılığını bildirdi.

Müəssisə ilə tanışlıqdan gəldiyimiz qənaət bu oldu ki, bu gün muxtar respublika iqtisadiyyatında özəl sektor xüsusi yerə və rola malikdir. Təbii ki, bu sektorun inkişafında yerli məhsul istehsalı mühüm rol oynayır. Dövlət tərəfindən sahibkarlığın inkişafına verilən dəstək, həyata keçirilən iqtisadi islahatlar sahibkarlıq təsərrüfatlarının ölkə iqtisadiyyatının yüksəlişində mühüm rol oynayan subyektlərdən biri olaraq çıxış etməsinə möhkəm bazis yaradır və bundan sonra da yaradacaqdır.

✍ Gülcamal TAHİROVA

# Görkəmli maarifçinin xatirələri yaşadılır

*Naxçıvan tarixən elm və mədəniyyət mərkəzi olub. Bu torpağın yetirmələrindən biri də görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqidir. XIX əsr Azərbaycan məktəbi, pedaqoji və ədəbi fikir tarixinin görkəmli nümayəndələrindən biri kimi, Məhəmməd Tağı Sidqi bütün həyatı boyu maarif və mədəniyyət carçısı olub, yorulmadan, fədakarcasına xalqı elmə, tərəqqiyə çağırıb. Maarifçilik fəaliyyəti dövründə məktəbdarlıq, ədəbiyyat, teatr və mətbuat sahələrində əvəzsiz xidmətlər göstərən görkəmli maarifçi təkcə Azərbaycanda deyil, Yaxın Şərq ölkələrində də tanınıb. Xalqımızın ümummilli lideri Heydər Əliyev Məhəmməd Tağı Sidqinin fəaliyyətini yüksək qiymətləndirərək deyib:* ***“Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur”.***



Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında” 2014-cü il 17 sentyabr tarixli Sərəncamı Sidqinin həyat və yaradıcılığına verilən yüksək dəyər və qiymətdir. Sərəncamda deyilir: *“Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqi realist ədəbiyyatın inkişafında, məktəb, teatr və mətbuat sahəsində əvəzsiz xidmətlər göstərib. Onun yaratdığı məktəblər Azərbaycanda təhsilin, əsərləri isə maarifçi düşüncənin və ədəbiyyatın inkişafında mühüm rol oynayıb. Böyük pedaqoq Məhəmməd Tağı Sidqinin maarifçilik hərəkatının inkişafı naminə xidmətləri öz dövründə olduğu kimi, bu gün də aktuallığını qoruyub saxlamaqdadır”.*





Doğulduğu, boya-başa çatdığı Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması görkəmli pedaqoqun xatirəsinin əbədiləşdirilməsinə, yaradıcılığının daha da dərindən öyrənilməsinə və təbliğ olunmasına geniş şərait yaradıb.

Ötən günlərdə muzeylə yaxından tanış oldum. Sizə də bu maarif, mədəniyyət ocağını tanıtmaq istəyirəm…

Muzey binası girişdən, 3 ekspozisiya zalından və 3 iş otağından ibarətdir. İlk vitrində Məhəmməd Tağı Sidqinin tərcümeyi-halı verilib. Burada göstərilir ki, görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqi 1854-cü ildə Ordubad şəhərində anadan olub. İlk təhsilini Molla Məhəmməd Tağı adlı axundun məktəbində alıb, daha sonra təhsilini Hüseyn Soltan mədrəsəsində davam etdirməklə klassik Şərq poeziyasını və fəlsəfəsini, eləcə də ərəb və fars dillərini öyrənib. 1892-ci ildə Ordubadda “Əxtər” (Ulduz) adlı yeni üsullu məktəbin əsasını qoyaraq maarifçilik fəaliyyətinə başlayıb. Bu məktəb az bir zamanda böyük nüfuz qazanıb. O, 1894-cü ilin sentyabrında maarifpərvər ziyalılar tərəfindən Naxçıvan şəhərinə dəvət olunub və burada “Tərbiyə” məktəbini açıb. Məktəb Naxçıvan şəhərindəki Came məscidinin həyətində yerləşib. Bu məktəb iki il fəaliyyət göstərdikdən sonra 1896-cı ildən rus-Azərbaycan məktəbinə çevrilib. Həmin dövrdə Sidqi maarifçi ideyalarına görə çarizmin təqiblərinə məruz qalıb, müəllimlik şəhadətnaməsi olmadığından dərs deməsinə qadağa qoyulub. O, İrəvana gedərək xüsusi imtahan verib və Tiflis Zaqafqaziya ruhani idarəsindən xüsusi müəllimlik şəhadətnaməsi alaraq pedaqoji fəaliyyətini davam etdirib. Bundan sonrakı dövr Sidqinin yaradıcılığının və müəllimlik fəaliyyətinin ən məhsuldar dövrü kimi səciyyələndirilir. 1896-cı ildə Sidqi çox gərgin mübarizələrdən sonra Naxçıvanda “Qız məktəbi”nin açılmasına nail olub.

İkinci vitrində Məhəmməd Tağı Sidqinin yaratdığı “Əxtər” və “Tərbiyə” məktəblərinin fotoşəkilləri, böyük maarifçinin məktəb haqqında fikirləri nümayiş olunur. Sidqinin mühüm xidmətlərindən biri də bacarıqlı pedaqoq kimi yeni nəsillərin formalaşması işinə böyük töhfələr verməsidir. Onun vaxtilə dərs dediyi şagirdlər sırasında yetişən tanınmış simalardan biri də elə öz oğlu, görkəmli maarifçi, pedaqoq, publisist, tərcüməçi Məmmədəli Sidqi Səfərovdur. Məmmədəli Sidqi atasının şərəfli yolu ilə getməklə onun ideyalarını ləyaqətlə davam və inkişaf etdirib, maarif, mədəniyyət, mətbuat, ədəbiyyat sahəsində diqqətəlayiq işlər görüb. Vitrində Sidqi və ailə üzvlərinin, eləcə də oğlu Məmmədəli Sidqi Səfərovun fotoşəkli yerləşdirilib.

Növbəti vitrində ədibin məktəb və şagirdlər haqqında yazdığı hekayə və şeirlərdən nümunələr, digərində isə onun şagirdlərinin fotoşəkilləri yerləşdirilib. Görkəmli maarifçinin açdığı məktəblər böyük ziyalı nəsli yetişdirib. Burada onun yetirmələri Hüseyn Cavid, Əziz Şərif, Əliqulu Qəmküsar, Rza Təhmasib, Məmməd Səid Ordubadi, İbrahim Əbilov kimi görkəmli şəxsiyyətlərin fotoşəkilləri nümayiş etdirilir.

Azərbaycan maarif və məktəbdarlığının inkişafı tarixində Sidqinin göstərdiyi misilsiz xidmətlər yalnız təsis etdiyi məktəblərlə bitmir. O, “Tərbiyə” məktəbində müdir və müəllim olduğu müddətdə “Heykəli-insana bir nəzər”, “Puşkin”, “Kəblə Nəsir” kimi mətbu, “Məsnəviyyati-mədəniyyət”, “Hakimanə sözlər”, “Yüz il yatandan sonra” kimi ictimai-siyasi, fəlsəfi, etik, elmi-pedaqoji əsərlər, “Nümuneyi-əxlaq”, “Coğrafiya xüsusunda məlumati-mücməl”, “Tənviri əfkar və təfhimi-insaniyyət”, “Töhfeyi-bənat, yainki qızlara hədiyyə” kimi dərsliklərini də yazıb.

Görkəmli pedaqoqun müəllifi olduğu və hazırda AMEA Əlyazmalar İnstitutunda saxlanılan yeddi dərsliyin əlyazmalarının fotosurətləri, “Kəblə Nəsir” əsərinin üz qabığı muzeydə nümayiş etdirilən qiymətli eksponatlar sırasındadır. Sidqi, həmçinin Azərbaycan maarifçi-realist ədəbiyyatının, o cümlədən Naxçıvan teatrının ilk yaradıcılarından biri kimi də tanınıb. Onun müəllim və teatr rejissoru kimi fəaliyyət göstərdiyi dövrə aid müxtəlif protokol və pasportların fotosurətləri, rejissorluğu ilə hazırlanmış və müxtəlif illərdə Naxçıvan teatrının səhnəsində oynanılan tamaşaların siyahısı, eləcə də tanınmış rəssamların Sidqiyə həsr etdikləri rəsmlər ekspozisiyada nümayiş olunur. Onun rejissorluğu ilə 1890-1903-cü illərdə Mirzə Fətəli Axundovun “Müsyö Jordan və dərviş Məstəli şah”, “Molla İbrahimxəlil kimyagər”, “Hacı Qara”, Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq”, “Pəri cadu”, Eynəli bəy Sultanovun “Tatarka” əsərləri uğurla səhnələşdirilib.

1903-cü ilin dekabrında Kəngərli rayonunun Qarabağlar kəndində vəfat edən Sidqinin ölümündən sonra ailəsi böyük çətinliklər yaşayıb. Həyat yoldaşı İsmət xanım Səfərova tərəfindən 28 dekabr 1903-cü il tarixdə Naxçıvan rus-tatar məktəbinin direktoruna yazdığı məktubun mətni muzeydə nümayiş etdirilən eksponatlar sırasındadır.

Sidqinin Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov, Məmmədəli Şəfiyev, Qurbanəli Şərifzadə, Sultanməcid Qənizadə kimi müasirləri ilə səmimi dostluq əlaqələri olub, görkəmli azərbaycanlı ziyalılar onu böyük ehtiramla xatırlayıblar. Onun həyat və fəaliyyətinə həsr olunmuş qəzet materialları, elmi əsərlər və tədqiqat materialları, rəsm əsərləri, yazdığı kitablar da muzeydə nümayiş etdirilənlər sırasındadır. Naxçıvan ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının 2004-cü il tarixli 12-ci nömrəsi görkəmli pedaqoqun 150 illiyinə, 2014-cü il tarixli 29-cu nömrəsi isə 160 illiyinə həsr edilib. Naxçıvan Dövlət Televiziyasının Məhəmməd Tağı Sidqi haqqında hazırladığı sənədli filmlər də ekspozisiyada nümayiş olunur.

Məhəmməd Tağı Sidqinin yaradıcılığı muxtar respublika rəhbəri tərəfindən böyük diqqət və qayğı ilə əhatə olunub, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2004-cü il 11 mart tarixli Sərəncamına əsasən Naxçıvan Dövlət Kukla Teatrına görkəmli pedaqoqun adı verilib. Həmçinin Naxçıvan şəhər 4 nömrəli və Ordubad şəhər 1 nömrəli tam orta məktəblər də onun adını daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi” haqqında 2014-cü il 20 avqust tarixli Sərəncamına əsasən görkəmli pedaqoqun 160 illik yubileyi muxtar respublikada geniş şəkildə qeyd olunub. Ekspozisiyada Ali Məclis Sədrinin həmin Sərəncamı, “Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması” haqqında 2014-cü il 17 sentyabr tarixli Sərəncamı, vitrində isə Sidqinin 150 illik yubileyi ilə bağlı Sərəncam, 2014-cü il dekabrın 5-də Ordubad şəhərində keçirilən Məhəmməd Tağı Sidqinin 160 illik yubiley tədbiri və Ali Məclis Sədrinin yubileydəki tarixi çıxışının mətnini əks etdirən qəzet nümunəsi, 150 və 160 illik yubiley tədbirlərinin CD-ləri nümayiş olunur. Həmçinin burada görkəmli maarifçinin əlyazmaları, nəşr olunan məqalə və kitabları, görkəmli pedaqoqun zəngin irsinin öyrənilməsi ilə bağlı keçirilən konfransların materialları, qəbul olunan proqramlar, Məhəmməd Tağı Sidqi haqqında yazılmış kitab, jurnal, qəzet materialları və fotoşəkillər, ötən il noyabr ayının 10-da Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu tərəfindən muzeyə təqdim olunan görkəmli pedaqoqa aid əlyazma nüsxələri də qorunub saxlanılır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”na Məhəmməd Tağı Sidqinin “Məktəb hekayələri” kitabı da salınıb. Bu, görkəmli maarifçinin yaradıcılığına göstərilən diqqətin, eləcə də məktəbin, elmin əhəmiyyətindən bəhs edən kitabın gələcək nəsillər üçün nə qədər əhəmiyyətli olduğunun göstəricisidir.

Muzeyə Rusiya, İran, Türkiyə və digər xarici ölkələrdən də yüzlərlə turist ziyarətə gəlir. Burada qarşılaşdığımız Ordubad rayon sakini ***Türkan Qüdrətli*** muzeyin təsəvvür etdiyindən də zəngin olduğunu bildirdi: “Məhəmməd Tağı Sidqinin həyat və yaradıcılığı, fəaliyyəti barədə ətraflı məlumat əldə etdim. Düşünürəm ki, dahi yaradıcılarımız haqqında belə muzeylərin sayı çoxalsa, daha geniş məlumat əldə edər, biliklərimizi genişləndirərik”. Digər bir ziyarətçi ***Səkinə Alquluyeva*** Bakı şəhərindən Ordubada istirahət etməyə gəlib. Şəhərin gəzməli-görməli yerləri ilə tanışlıq onda xoş təəssürat yaradıb. Muzeylə tanışlıqdan isə görkəmli maarifçi haqqında daha ətraflı məlumat əldə edib. Maarifçi pedaqoqun ideyalarının qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasını əhəmiyyətli iş hesab edən Səkinə xanım burada gördüklərini dost və tanışları ilə də bölüşəcəyini dedi.

*Bu gün Məhəmməd Tağı Sidqinin irsi, onun maarifçilik ideyaları, elmin və təhsilin inkişafı sahəsində əsasını qoyduğu ənənələr muxtar respublikamızda yaşadılır. Görkəmli maarifçinin həyat və yaradıcılığı ilə bağlı araşdırmalar davam etdirilir, muzey arxiv materialları əsasında zənginləşdirilir. Görkəmli maarifçinin irsi gənc nəslə təbliğ olunur, onun pedaqoji fikir tariximizdə əsasını qoyduğu ənənələr tədris prosesində tətbiq edilir, muzeydə ümumtəhsil məktəbləri şagirdlərinin iştirakı ilə açıq dərslər keçirilir. Bu, bir tərəfdən görkəmli şəxsiyyətin bir zamanlar Naxçıvanda təhsilin və milli inkişafın güclənməsi üçün göstərdiyi əvəzsiz xidmətlərə verilən ən layiqli qiymət, digər tərəfdən isə onun xalqımızın savadlı maarifpərvər, ziyalı kimi formalaşması yolunda göstərdiyi səyləri gələcək nəsillərə ötürmək, təbliğ etmək işində mühüm rol oynayır.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Məktəblərin dərsliklərlə təminatı diqqətdə saxlanılır

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Ali Məclis Sədri tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə digər mühüm məsələlərlə yanaşı, yeni tədris ilinə hazırlığın görülməsi ilə də bağlı tapşırıq verilib. Ötən müddətdə bu tapşırıqların icrası istiqamətində bir sıra işlər görülüb. Həyata keçirilən tədbirlərdən biri də şagirdlərin dərsliklərlə vaxtında təminatıdır. Bunun üçün nazirlik tərəfindən ümumtəhsil məktəblərindəki dərsliklərin təhlili aparılmış, yeni dərsliklərə tələbat müəyyənləşdirilmiş, cari ilin aprel ayında 243 min dərsliyin sifarişi verilmişdi. Sifariş verilən kitabların 118 mini artıq muxtar respublikaya gətirilib və növbəti günlərdə digər dərsliklərin də gətirilməsi təmin ediləcək.

Qeyd edək ki, bir neçə ildir, Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə keçirilən müşavirədə Ali Məclis Sədri tərəfindən verilən tapşırıqların icrası məqsədilə Təhsil Nazirliyi ali məktəblərin professor, müəllim heyətləri ilə birlikdə yeni dərslik və dərs vəsaitlərinin müzakirəsini həyata keçirir. Ötən tədris ilində də nazirlik tərəfindən VII və X sinif Fizika, Kimya, Biologiya, Tarix, Coğrafiya, III sinif Azərbaycan dili və Riyaziyyat dərsliklərinin müzakirəsi təşkil edilmiş, müzakirələrdə bildirilən təkliflər əsasında dərsliklərin təkmilləşdirilməsi ilə bağlı yekun rəylər hazırlanaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinə göndərilmişdir. Ötən tədris ili üzrə müzakirələri aparılan, müvafiq düzəlişlər edilərək yenidən nəşr olunan dərsliklər də artıq növbəti tədris ilindən şagirdlərə paylanılacaq.



Hər biri mənəvi zənginlik, gələcəyin intellektli gənclərinin formalaşması üçün mühüm əhəmiyyət kəsb edən dərsliklərin paylanması isə sentyabr ayının əvvəllərinədək həyata keçiriləcək. Dərsliklərin şagirdlərə əvvəlcədən paylanması tədris ili başlanana dək onların bütün dərsliklərlə təmin edilməsinə və kitabların məzmunu ilə tanış olmasına şərait yaradır. Vaxtında və pulsuz paylanan dərs vəsaitləri bu sahəyə olan dövlət qayğısının nəticəsidir. Bu qayğı müqabilində məktəblilərin üzərinə düşən vəzifə biliklərə daha dərindən yiyələnmək və təqdim olunan vəsaitləri qoruyaraq onlardan düzgün istifadə etməkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Maarifləndirici tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində “Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti” publik hüquqi şəxsi tərəfindən maarifləndirici tədbir keçirilmişdir. Tədbiri Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti polkovniki İsmayıl Məmmədov açmışdır. Daha sonra xidmətin direktor müavini Musa Əliyev tədbir barədə məlumat vermişdir.

Tədbirdə Dövlət Sığorta Xidmətinin əməkdaşları Vüsal Ağayev, Mehdi Bağırov və Şəfa Əhmədli çıxış edərək fiziki şəxslərə məxsus olan əmlakların, fiziki şəxslərə məxsus olan heyvanların, fərdi qəza sığortaları, avtomobil nəqliyyatı vasitələrinin tam sığortası və daşınmaz əmlakın icbari sığortası, yüklərin sığortası növlərinin icrası barədə iştirakçılara ətraflı məlumat vermişlər.

Sonda verilən suallar cavablandırılmış, mövzu ətrafında geniş müzakirələr aparılmış, Gömrük komitəsinin əməkdaşlarına qeyd olunan sığorta növlərinə dair buklet və broşürlər paylanılmışdır.

**Xəbərlər şöbəsi**

## Dövlət proqramı icra olunur

# İdmanın inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir

***Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı xüsusi diqqətdə saxlanılır, bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlərin əhatə dairəsi ildən-ilə genişlənir. Görülən işlər gənc nəslin hərtərəfli inkişafını təmin edir və sağlam cəmiyyətin sütunlarının möhkəm təməl üzərində dayanmasına səbəb olur. Bu işlərin davamlı xarakter almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın uğurlu icrasının mühüm rolu vardır. Proqramın qəbul edilməsindən ötən müddətdə həyata keçirilən tədbirlər muxtar respublikada peşəkar idmançıların yetişdirilməsinə, eləcə də ölkə və beynəlxalq səviyyəli yarışlarda əldə edilən uğurların sayının daha da artmasına gətirib çıxarmışdır.***

Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası cari ilin birinci yarısında da davam etdirilmiş, bu dövrdə muxtar respublikada 349 idman tədbiri keçirilmişdir. Birinci yarım ildə muxtar respublika idmançıları ölkə səviyyəli yarışlarda 152, beynəlxalq yarışlarda 58 olmaqla, ümumilikdə, 210 medal qazanmışlar. Qazanılan medalların 84-ü qızıl, 43-ü gümüş, 83-ü isə bürünc olmuşdur.



İdmanın hərtərəfli inkişafına şərait yaradan amillərdən biri də bu sahədə tikinti-yenidənqurma işlərinin davam etdirilməsi və yeni idman obyektlərinin istifadəyə verilməsidir. Yaradılan şərait təkcə gənc nəslin deyil, eyni zamanda hər yaşdan olan muxtar respublika sakinlərinin sağlam fiziki inkişafının təmin olunmasına imkan verir. Qeyd edilən dövrdə Şərur Şəhər Mərkəzi Stadionunda yenidənqurma işləri davam etdirilmişdir. Həmçinin Çərçiboğan kənd tam orta məktəbinin stadionunda əsaslı təmir və abadlaşdırma işləri başa çatdırılmış, Dəmirçi kənd stadionunda tamaşaçı və ehtiyat oyunçu skamyaları yeniləri ilə əvəz olunmuşdur. Birinci yarım ildə özəl investisiya qoyuluşu hesabına Naxçıvan şəhərində "Femina" Sağlamlıq Mərkəzinin və Kəngərli rayonunun Qıvraq qəsəbəsində fitnes zalının yaradılması da başa çatdırılmışdır.

İdmanın inkişafı istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlər Naxçıvan Muxtar Respublikasını ölkəmizin idman mərkəzlərindən birinə çevirmişdir. Müasir idman obyektlərinin istifadəyə verilməsi və idman federasiyalarının işinə göstərilən diqqət Naxçıvanda ölkə və beynəlxalq səviyyəli yarışların təşkili üçün yeni imkanlar açmışdır. Son dövrlərdə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının uğurlu fəaliyyətinin nəticəsidir ki, muxtar respublikada ardıcıl olaraq nüfuzlu şahmat turnirləri təşkil olunur. Bu işlərin davamı olaraq may ayında Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş beynəlxalq şahmat turniri keçirilmişdir. Turnirdə Azərbaycan, Türkiyə, İran və Ukraynadan olmaqla, ümumilikdə, 214 şahmatçı mübarizə aparmış, muxtar respublikamızı 81 zəka sahibi təmsil etmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda idmana dövlət tərəfindən göstərilən dəstək, Dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir... Ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda idmanın kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı kəskin artır, biz bunu görürük, izləyirik".***

Birinci yarım ildə bədən tərbiyəsi və idmanın inkişafında xüsusi əhəmiyyət nəzərə alınaraq həvəsləndirici tədbirlərin təşkili də diqqətdə saxlanılmışdır. Belə ki, Naxçıvan Şəhər Stadionunda 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü və "Araz-Naxçıvan" Futbol Klubunun yaradılmasının 55 illiyi münasibətilə "Bir uşaq-bir top" festivalı keçirilmişdir. Festivalda müxtəlif əyləncəli idman oyunları təşkil edilmiş, tədbirdə iştirak edən uşaqlara top və digər hədiyyələr təqdim olunmuşdur.

Dövlət proqramının icrası çərçivəsində xüsusi diqqətdə saxlanılan məsələlərdən biri də muxtar respublikada idman turizminin inkişafıdır. Ötən dövrdə Naxçıvanda Ağbulaq Xizək Mərkəzinin istifadəyə verilməsi qış aylarında idmanın bu növü ilə məşğul olan yerli və xarici turistlərin marağını muxtar respublikaya cəlb etmişdir. Cari ilin birinci yarısında isə Naxçıvanda ilk dəfə olaraq Ağbulaq İstirahət Mərkəzi və Əlincəqalanın zirvəsindən yamac paraşütünün test uçuşları həyata keçirilmişdir. Tədbir ölkəmizin müxtəlif regionlarında yamac paraşütü uçuşlarının təşkili ilə tanınan "AirGame Paragliding" şirkətinin və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin təşkilatçılığı ilə baş tutmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu gün təhsilin inkişafı gənclərin sağlam böyüməsindən asılıdır. Əgər onlar sağlam həyat tərzi keçirirlərsə, deməli, yaxşı təhsil ala biləcək, ailələri, cəmiyyət və dövlət üçün yararlı vətəndaşa çevriləcəklər".*** Naxçıvanda bədən tərbiyəsi və idmanın inkişafı istiqamətində xüsusi diqqət yetirilən məsələlərdən biri də ümumtəhsil məktəblərində müxtəlif idman növləri üzrə klubların yaradılmasıdır. Belə ki, təhsilin keyfiyyətinin yüksəldilməsində və bu sahədə uğurlu nəticələrin əldə olunmasında təhsil alanların sağlamlığının təmin edilməsi mühüm rol oynayır. Onu da qeyd etmək lazımdır ki, ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin ixtisaslı müəllimlərin köməyi ilə müxtəlif idman növləri üzrə bacarıqlarının inkişaf etdirilməsi gələcək peşəkar idmançıların yetişməsinə də şərait yaradır. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tapşırıqların icrası məqsədilə yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilən Çərçiboğan kənd tam orta məktəbində futbol, voleybol və tennis idman klubları yaradılmışdır. Klubların fəaliyyətinin təmin edilməsi üçün məktəbə stolüstü tennis masası və bu idman növü ilə bağlı digər ləvazimatlar, eləcə də futbol və voleybol topları verilmişdir.



Bunlarla yanaşı, məktəbdə şahmat sinfi yaradılmış və lazımi avadanlıqlarla təmin olunmuşdur.

Proqramın icrasına uyğun olaraq idman sahəsində peşəkarlığın artırılması məqsədilə muxtar respublikaya təcrübəli idmançıların dəvət olunması istiqamətində də tədbirlər davam etdirilmişdir. Keçirilən tədbirlər idmançıların, eləcə də məşqçi-müəllimlərin nəzəri və praktik biliklərinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Bu məqsədlə birinci yarım ildə qrossmeysterlər Vüqar Əsədli, Eltac Səfərli və Vasif Durarbəyli tərəfindən Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının şahmatçıları üçün, eyni zamanda Azərbaycanın qadınlardan ibarət yığma komandasının baş məşqçisi Fikrət Sideifzadə tərəfindən Sədərək rayonunda kiçikyaşlı şahmatçılar üçün ustad dərsləri və seans oyunları təşkil olunmuşdur. Əlavə olaraq Azərbaycan Milli Paralimpiya Komitəsinin boccia üzrə milli komandasının baş məşqçisi İlham Məhərrəmov tərəfindən Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının, güləş üzrə Azərbaycan milli komandasının üzvü Hacı Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının məşqçi-müəllim və idmançıları üçün, eləcə də Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının hakimlər komitəsinin əməkdaşı Anar Salmanov tərəfindən futbol üzrə Naxçıvan Region Liqası oyunlarında iştirak edən hakimlər üçün seminarlar keçirilmişdir. Qeyd edilənlərlə yanaşı, cari ilin ilk yarısında Naxçıvan Futbol Federasiyasının sədr müavini Türkiyənin "Çaykur Rizəspor" Futbol Klubunun Gənclik İnkişaf Etdirmə və Futbol Təhsil Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur. Həmçinin "Araz-Naxçıvan" Futbol Klubunun Türkiyənin Ərzurum şəhərində təlim-məşq toplanışı keçirməsi təmin olunmuş, adıçəkilən şəhərdə bir neçə yerli komanda ilə yoldaşlıq görüşü keçirilmişdir.






Qədim diyarın beynəlxalq idman mərkəzi kimi tanınması, mötəbər arenalarda bayrağımızın dalğalanması hər birimizi qürurlandırır. Bütün bu nailiyyətlərin əsasında isə məhz dövlətin uğurlu idman siyasəti dayanır. Görülən işlər onu deməyə əsas verir ki, Naxçıvanda idmanın inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın uğurlu icrası isə bu sahədə yeni nailiyyətlərin qazanılmasına imkan verəcəkdir.

**"Şərq qapısı"**

---

# "Araz-Naxçıvan" çempionata qələbə ilə başladı





Futbol üzrə Azərbaycan I Divizionunda 2022-2023-cü illər mövsümünə start verilib. 8 illik fasilədən sonra çempionatda iştirak edən "Araz-Naxçıvan" çempionatın ilk turunda doğma arenada "Qarabağ-2" komandasını qəbul edib. Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən görüşü Səbuhi Bayramov, Tərlan Talıbzadə, Elman Kərimov və Kamran Əliyevdən ibarət hakimlər briqadası idarə edib.

Görüşə sürətli başlayan "Araz-Naxçıvan" ilk hissədə oyunun taleyini həll edib. Belə ki, 23-cü dəqiqədə Ege Atlam Adnanla hesabı açan "qırmızı-ağlar", 40-cı dəqiqədə Fərid Kərimzadənin "ifa"sında rəqibi yenidən mərkəzə dəvət ediblər – 2:0. İlk hissəyə əlavə olunmuş dəqiqələrdə Tuqay Əlizadə hesab arasındakı fərqi 3-ə çatdırıb.

İkinci hissənin əvvəlində hesab arasındakı fərqi azaldan "Qarabağ-2" komandası 71-ci dəqiqədə qapısından daha bir top buraxıb. Bu dəfə "Araz-Naxçıvan"ın heyətində De Saboa İv Lyüsyen fərqlənib – 4:1. Qoldan sonra hücumlarını davam etdirən Naxçıvan təmsilçisi daha bir dəfə azarkeşləri sevindirib. De Saboa İv Lyüsyen oyunda dubl etməklə yanaşı, hesabı da müəyyənləşdirib – 5:1.

✍ **Ceyhun MƏMMƏDOV**

---

## Elan

Muxtar respublika əhalisi Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının birgə təşkilatçılığı ilə Naxçıvan şəhəri, Xətai küçəsindəki Mərkəzi Bazarda, həmçinin rayon mərkəzlərində 1-15 sentyabr 2022-ci il tarixlərdə keçiriləcək məktəbli yarmarkasına dəvət edilir.

Məktəbli yarmarkası hər gün saat 9⁰⁰-dan 14⁰⁰-dək əhaliyə xidmət göstərəcəkdir.

Yarmarkada əhaliyə münasib qiymətlərlə yüksək keyfiyyətdə məktəbli geyimləri, idman formaları, ayaqqabı və məktəbli ləvazimatları təklif olunacaqdır.

Bütün valideynləri və müəllimləri yaradılmış şəraitdən istifadə etmək üçün yarmarkalara dəvət edirik.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## İtmişdir

Fərhadov Şaiq Faiq oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Yuxarı Daşarx kənd sakini Mehdiyeva Zərifə Süleyman qızının adına olan JN-187A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 743